Azərbaycan Respublikası
Bakı Şəhər Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının
# SƏRƏNCAMI

№ 139 «13» 11 2020-ci il

**"2020-2021-ci illərin qış mövsümünün başlanması haqqında "**

Qış mövsümünün başlandığını nəzərə alaraq və Bakı Şəhər İcra Hakimiyyətinin 11 noyabr 2020-ci il tarixli 244 saylı Sərəncamının icrası və rayonun istilik təchizatı obyektlərinin işə salınması məqsədilə "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamə"nin 4.1.2, 4.9.5 və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

1. 15 noyabr 2020-ci il tarixdən rayonun istilik təchizatı obyektləri qış rejiminə keçirilsin.
2. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının yanında yaradılmış Qərargaha tapşırılsın ki, rayon təsərrüfatının 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlığı ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 31 avqust 2020-ci il tarixli 99 saylı Sərəncamı ilə təsdiq edilmiş tədbirlər planında nəzərdə tutulmuş işlərin icrasının təmin edilməsini aidiyyəti üzrə məsul şəxslərdən tələb etsin.
3. "Azəristiliktəchizat" ASC-nin 3, 15 və 20 saylı İstilik Sistemləri İstismar Sahələrinin rəislərinə tapşırılsın ki, Bakı Şəhər İcra Hakimiyyətinin "2020-2021-ci illərin qış mövsümünün başlanması haqqında" 11 noyabr 2020-ci il tarixli 244 saylı Sərəncamının tələblərindən irəli gələn məsələlərin icrasını və 15 noyabr 2020-ci il tarixdən rayonun istilik təchizatının qış rejiminə keçirilməsini, istilik qazanxanalarını və istilik məntəqələrini işlək vəziyyətə gətirərək, onların qrafik üzrə işə salınmasını, yaşayış binalarına, məktəb, uşaq bağçaları və digər sosial obyektlərə gedən magistral xətlərin texniki vəziyyətini bir daha araşdıraraq, binadaxili iş rejimini təmin etsinlər.
4. Bakı Regional Qaz İstismar Departamentinin Binəqədi rayonu üzrə texniki istismarı xidmətinə (Ramiz Qafarov), Binəqədi rayon Enerji Təchizatı və Satışı İdarəsinə (Paşa Rzayev) və Biləcəri Enerji Təchizatı və Satışı İdarəsinə (Paşa Əliyev) tapşırılsın ki, rayon ərazisində mövcud olan istilik qazanxanalarının və məntəqələrinin payız-qış mövsümündə fasiləsiz təbii qazla və elektrik enerjisi ilə təmin edilməsini nəzarətdə saxlasınlar.

Binəqədi Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinə tapşırılsın ki, rayon istilik təşkilatları ilə birlikdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 31 avqust 2020-ci il tarixli 99 saylı Sərəncamı ilə təsdiq edilmiş tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

6. Rayon təsərrüfatı şöbəsinə tapşırılsın ki, rayon ərazisində fəaliyyət göstərən məhəllədaxili qazanxana və istilik məntəqələrinin işlək vəziyyəti ilə əlaqədar monitorinqlərin keçirilməsini təmin etsin.
7. Qarargahın sədri İ.Süleymanova tapşırılsın ki, payış-qış mövsümü ərzində təsdiq edilmiş tədbirlər planının və bu sərəncamdan irəli gələn məsələlərin keyfiyyətli və vaxtında yerinə yetirilməsi vəziyyəti barədə mütəmadi olaraq Rayon İcra Hakimiyyəti başçısını məlumatlandırsın.
8. Sərəncamın icra olunması üçün aidiyyəti təşkilatlara göndərilməsi Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə həvalə edilsin.
9. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri səlahiyyətlərini icra edən** **Kamran Quliyev**

**№119**